APREL-2025-AYLIQ KOMİKS JURNALI-WWW.INSANEJURNAL.COM

İNSANE



TOFİQ YAQUBLUNUN AZƏRBAYCAN CƏMİYYƏTİNƏ MÜRACİƏTİ

ƏZİZ DOSTLAR, BƏLKƏ DƏ SİZƏ SONUNCU DƏFƏ MÜRACİƏT EDİRƏM. MƏNƏ QARŞI ÇIXARILMIŞ QANUNSUZ, ƏSASSIZ VƏ ABSURD İTTİHAMA ETİRAZ OLARAQ KEÇİRDİYİM ACLIQ AKSİYASI İKİNCİ AYA KEÇDİ. ETİRAF EDİM Kİ, ÇOX AĞIR VƏ ƏZABLI PROSESDİR, LAKİN BUNUN MƏNİM ƏZMİMƏ VƏ İRADƏMƏ HEÇ BİR TƏSİRİ YOXDUR. ƏKSİNƏ, GÜNLƏR KEÇDİKCƏ QƏTİYYƏTİM DAHA DA ARTIR. İLHAM ƏLİYEVİN MƏNƏ VƏ MƏNİM AİLƏMƏ VURDUĞU YARALARI, ETDİYİ PİSLİKLƏRİ SADALAMAQLA QURTARAN DEYİL. ONLARDAN İNDİKİ DURUMUMA AİD OLAN BİRİNİ DEYİM. 2015-Cİ İLDƏ YENƏ DƏ QANUNSUZ VƏ ƏSASSIZ ŞƏKİLDƏ HƏBSDƏ OLDUĞUM ZAMAN İLK NƏVƏM DÜNYAYA GƏLDİ. LAKİN BU KÖRPƏNİN DÜNYAYA GƏLİŞİ BİZİM AİLƏYƏ FACİƏ GƏTİRDİ. MƏLƏK BALAM NƏRGİZ ÖZ KÖRPƏSİNİ GÖRMƏDƏN HƏYATINI İTİRDİ. BU GÜNLƏRDƏ İKİNCİ NƏVƏM DÜNYAYA GƏLƏCƏK. BU KÖRPƏNİN DƏ DÜNYAYA GƏLİŞİ BİZİM AİLƏNİN FACİƏSİNƏ ÇEVRİLƏ BİLƏR. HƏMİN ƏRƏFƏDƏ MƏNİM HƏYATIMI İTİRƏ BİLƏCƏYİM EHTİMALI OLDUQCA YÜKSƏKDİR. 1993-CÜ İLDƏN BƏRİ 4 DƏFƏ CİNAYƏT İTTİHAMI İLƏ MƏHKUM OLUNMUŞAM VƏ SAYINI İTİRDİYİM QƏDƏR DƏ İNZİBATİ HƏBSLƏRƏ MƏRUZ QALMIŞAM. BÜTÜN BU İTTİHAMLAR SİYASİ SİFARİŞ ƏSASINDA OLUB VƏ ONLARIN ŞƏXSƏN İLHAM ƏLİYEVƏ NƏ QƏDƏR AİDİYYATI VARSA, MƏNƏ DƏ O QƏDƏR AİDİYYATI VAR. MƏN HEÇ BİR CİNAYƏT TÖRƏTMƏMİŞƏM. SADƏCƏ OLARAQ ƏLİYEV HAKİMİYYƏTİNİN TÖRƏTDİYİ CİNAYƏTLƏRİ VƏ ETDİYİ SƏHVLƏRİ ONUN ÜZÜNƏ DEMİŞƏM, XALQI ÖZ HÜQUQLARI UĞRUNDA MÜBARİZƏYƏ SƏSLƏMİŞƏM. MƏNİM BÜTÜN "CİNAYƏTLƏRİM" BUNDAN İBARƏTDİR.

ƏZİZ DOSTLAR, HƏBS EDİLDİYİM İLK GÜNDƏN, XÜSUSİ İLƏ DƏ ACLIQ AKSİYASINA BAŞLADIĞIM DÖVRDƏN MƏNƏ MÖHTƏŞƏM DƏSTƏK VERMƏYİNİZDƏN, MƏNİM HAQQINDA XOŞ SÖZLƏR DEMƏNİZDƏN VƏ YÜKSƏK QİYMƏTLƏNDİRMƏNİZDƏN XƏBƏRİM VAR. BUNA GÖRƏ HƏR BİRİNİZƏ ÜRƏKDƏN TƏŞƏKKÜR EDİRƏM. SİZİN MƏNƏ BU MÜNASİBƏTİNİZDƏN DOĞAN ƏRKDƏN İSTİFADƏ EDƏRƏK SİZDƏN BİR TƏMƏNNAM VAR. BİLİRSİNİZ Kİ, ƏLİYEVLƏR REJİMİNİN BU İLLƏR ƏRZİNDƏ SİYASİ MƏHBUSLAR ÜZƏRİNDƏ QURDUĞU BÜTÜN İSTİNTAQLAR EYNƏN MƏNİM İŞİMDƏ OLDUĞU KİMİ ABSURD VƏ UYDURMALARDAN İBARƏTDİR. ÜMUMİ ŞƏKİLDƏ BU MƏHKƏMƏ PROSESLƏRİNDƏ ÇIXARILMIŞ HÖKMLƏRİN ƏSASSIZLIĞINI SÜBUT EDƏN DETALLARDAN XƏBƏRSİZİK. SİYASİ MƏHBUSLARIN MƏHKƏMƏ ZALLARINDAKI İTTİHAMI ALT-ÜST EDƏN ÇIXIŞLARI, ALİBİLƏRİ, GƏTİRDİKLƏRİ SÜBUT VƏ FAKTLARI ELƏ MƏHKƏMƏ DİVARLARI ARASINDA QALIR. MƏHKƏMƏ PROSESİNDƏN YAZILMIŞ REPORTAJLAR VƏ TƏƏSSÜRATLAR ONLARIN HEÇ 1 FAZİNİ DƏ ÇÖLƏ ÇIXARMAĞA QADİR DEYİL. BİLDİYİNİZ KİMİ SONUNCU MƏHKƏMƏ PROSESİNDƏ 134 SƏHİFƏLİK SON SÖZ YAZMIŞAM. HƏMİN SON SÖZÜMDƏ MƏNƏ QARŞI İRƏLİ SÜRÜLMÜŞ İTTİHAMI ELƏ DARMADAĞIN ETMİŞƏM Kİ, HƏTTA MƏN HƏR HANSI SƏBƏBDƏN BU UYDURMA CİNAYƏTİ BOYNUMA GÖTÜRMƏYƏ MƏCBUR OLSAYDIM BELƏ, HAKİMİN MƏNƏ BƏRAƏT VERMƏKDƏN BAŞQA YOLU QALMAZDI. BİZ HAKİMİYYƏTİ İTTİHAM EDƏNDƏ ÜMUMİ SÖZLƏRDƏN YOX, SÜBUTLARDAN VƏ FAKTLARDAN İSTİFADƏ ETMƏLİYİK. MƏNİM YAZDIĞIM SON SÖZÜ 2-3 GÜNƏ RAHATCA OXUYUB QURTARMAQ OLAR. ODUR Kİ, SİZDƏN BRİ RİCAM VAR. ƏGƏR HƏYATIMIN BU SON GÜNLƏRİNDƏ SİZDƏN DAHA ÇOX DƏSTƏK HİSS ETMƏYİMİ İSTƏYİRSİNİZSƏ, HƏMİN SON SÖZÜ ƏVVƏLDƏN AXIRA QƏDƏR OXUYUN, RƏYLƏRİNİZİ BİLDİRİN VƏ ONU DA BAŞQALARINA TÖVSİYYƏ EDİN.

DOSTLAR, ƏLBƏTTƏ Kİ, MƏN YAŞAMAQ İSTƏYİRƏM, AMMA NƏ EDİM Kİ, ƏLİYEV REJİMİ MƏNƏ BAŞQA SEÇİM İMKANI VERMƏDİ VƏ MƏN ÖMRÜMÜN SON GÜNLƏRİNİ HƏBSXANADA KEÇİRMƏK İSTƏMİRƏM. DÜŞÜNÜRƏM Kİ, ÖLSƏM, BU, BOŞUNA GETMƏZ VƏ DÜNYA İCTİMAİYYƏTİNİN, BEYNƏLXALQ TƏŞKİLATLARIN DİQQƏTİNİ CƏLB EDƏR. BU ANTİİNSANİ VƏ ANTİXALQ REJİMƏ QARŞI DAHA CİDDİ TƏDBİRLƏRİN GÖRÜLMƏSİNƏ SƏBƏB OLAR. CƏMİYYƏTİMİZDƏ DƏ ONU İSTİSMAR EDƏN, TALAYAN VƏ TƏHQİR EDƏN BU REJİMƏ QARŞI NİFRƏT HİSSİNİ GÜCLƏNDİRƏR, EYNİ ZAMANDA MÜBARİZƏYƏ SƏSLƏNDİRƏR. ÜMİD EDİRƏM Kİ, MƏNİM BU XAHİŞİMİ YERƏ SALMAZSINIZ. SİZLƏRİ DÜNYALAR QƏDƏR SEVİRƏM. SAĞ OLUN VƏ HAQQINIZI HALAL EDİN. XAHİŞ EDİRƏM BU MÜRACİƏTİMİ PAYLAŞIN VƏ ONUN YAYILMASINA ÇALIŞIN.

HÖRMƏTLƏ, TOFİQ YAQUBLU


#FREETOFIGYAGUBLU

TOFİQ YAQUBLUYA AZADLIQ TƏLƏB EDİRİK!



INSANE

YAĞ, EY YAĞIŞ


MASTER, MƏNƏ BİR YOL GÖSTƏR. NƏ ETMƏLİYƏM, NECƏ ETMƏLİYƏM? SƏN BELƏ VƏZİYYƏTLƏRDƏN NECƏ ÇIXIRDIN? SİKİŞLƏRİNNƏN MƏNƏ DƏ ÖYRƏT. UMALYAYU...
ELDAR, OĞLUM, BUNUN ANCAQ BİR YOLU VAR. DEMƏLİ, ÇIXIB HƏR YERDƏ DEYİRSƏN Kİ, ÖLKƏDƏ BİR KİŞİ VAR. O DA CƏNAB PREZİDENTDIR.

YAĞ, EY YAĞIŞ


ELDAR MƏLLİM, QALİB XALQIN JURNALİSTLƏRİ KİMİ ÇOX NARAHATIQ VƏ BİLMƏK İSTƏYİRİK BAKI NƏ ZAMAN NORMADAN ARTIQ YAĞAN YAĞIŞA HAZIR OLACAQ?
DEYİRƏM BİLİN! ÖLKƏDƏ BİR KİŞİ VAR, O DA BİZİM PREZİDENTİMİZDİR!
AZ, AZ, BUNUN BAŞI CAYIB EEE.


DAXİLİ XƏBƏRLƏR

HƏƏƏ, AZƏRBAYCANLILAR,
İNDİ AVROPA
MƏHKƏMƏSİ DƏ
SİZİ BU YUMRUQDAN
QURTARA BİLMƏYƏCƏK!
SIKI DURUN!

DAXİLİ XƏBƏRLƏR



XARİCİ XƏBƏRLƏR



XARiCi XƏBƏRLƏR



OLUM YA ÖLÜM





Təpə
10 MİLYONLUQ AZƏRBAYCANLA VİZA REJİMİNİN LƏVĞİNƏ GÖRƏ MİLYARD YARIMLIQ ÇİN XALQI ADINDAN ÇOX XOŞBAXTAM.


MƏLLİM, XƏBƏRİN VAR? ƏVƏZ ZEYNALLINI HƏBSDƏN BURAXDILAR. ŞANSI QAÇIRMA
HMMMM


HAKİMİYYƏT
ÇOX YAŞA, HUMANİST HAKİMİYYƏT! MMMAÇÇÇ, TƏŞƏKKÜRLƏR, MƏRHƏMƏTLİ PREZİDENTİM! MMMMAAAÇÇÇ, YENİLMƏZ ÜMUMMİLLİ DƏMİR YUMRUĞUM! MAAAÇÇ..
Təpə


BÜTÜN GÜNAHLAR
SƏNDƏDİ. ALA, İMKAN
VER NOBELİMİZİ
ALAQDA





PEACE
QADANI ALARAM,
SƏNİ YALARAM,
STOP PLİZ.



XALQ TV

Təpə

vay, dədə!!!



ŞƏHƏRƏ UÇAN
TAKSİLƏR GƏTİRİBLƏR?
SSSİİ...BİLİRDİM ELƏ
BUNLARIN YENİ DÜNYA
NİZAMI" BİZİM BAŞIMIZDA
ÇARTDIYACAĞ...




XALQ TV


BU XALAYA DA OTVEÇATAM. ŞİKLİN ÇƏKƏNİNİ AXTARIRAM. MƏNƏ DƏ BUZOVNALI MİRZƏ DEYƏRLƏR

HƏLLƏM-QƏLLƏM

DONALD TRUMP'S SIGNS SHOWERHEAD ORDER TO PROTECT HIS "BEAUTIFUL" HAIR





HƏLLƏM-QƏLLƏM


PEZİŞKİAN MƏLLİM, SİZ HƏLƏ BAKINI YAĞIŞDAN SONRA GÖRƏSİZ. BÜTÜN YOLLARI SU BASIR. ALƏM DƏYİR BİR-BİRİNƏ. LOTKADA ÜZƏN KİM, SUDA BOĞULAN KİM. HƏR ŞEY ORQANİK OLUR. ƏSL VENESİYA

AĞAYİ ƏZİZOV,BƏS BAKIDA NƏ QƏDƏR ƏHALİ VAR?

3,5 MİLYON. PAYTAXTDI DA. AZƏRBAYCAN ƏHALİSİNİN YARISI BURDADI. REGİONLARDA İŞ YOX, GÜC YOX. HAMI QAÇIR BAKIYA.

AĞA, SİZİN DƏRDİNİZƏ BİR MƏRSİYƏ DEYİB AĞLAMAQ LAZIMDI Kİ.

HƏ VALLA



WWW.INSANEJURNAL.COM

CAST

FEYZİ

TƏPƏGÖZ

MƏSXƏRƏBAZ



YAZ:

insanejurnal@gmail.com

2025